# Referat

Diplom işi 36 səhifə kompüter yazısından, 6 cədvəldən, və 26 adda ədəbiyyat siyahısından ibarətdir.

**Mövzu üzrə əsas sözlər**: torpaq, tikili və avadanlıqlar, : torpaq, tikili və avadanlıqlar qiymətləndirilməsi, uzunmüddətli aktivlər, : torpaq, tikili və avadanlıqların daxil olması, : torpaq, tikili və avadanlıqlar çıxması, amortizasiya norması.

**Tədqiqat obyekti**: Göygöl rayonu Elmi Tədqiqat Heyvandarlıq institutunun yardımçı təcrübə təsərrüfatı

**Tədqiqatın məqsədi:** Göygöl rayonu ETHİ-nun yardımçı təcrübə təsərrüfatında torpaq, tikili və avadanlıqların uçotunun vəziyyətini öyrənmək və onun təkmilləşdirilıməsini verməkdən ibarətdir

**İş prosesində:** Diplom işinin yazılmasında mövzuya dair ədəbiyyatdan ---- Göygöl rayonundakı ETHİ-nun yardımçı təcrübə təsərrüfatını illik hesabatlarından, ilkin sənədlərdən, qruplaşdırma və digər elmi-tədqiqat üsullarından istifadə olunmuşdur.

İş prosesində torpaq, tikili və avadanlıqların uçotunun vəziyyəti öyrənilmiş və onun təkmilləşdirilməsinə dair tövsiyələr verilmişdir.

## Mündəricat

Giriş ....................................................................................................4

1. Torpaq, tikili və avadanlıqların uçotunun nəzəri-metodoloji əsasları ....................................................................................................7
2. Təsərrüfatın iqtisadi xarakteristikası ..................................................11
3. Torpaq, tikili və avadanlıqların uçotu..................................................15

   3.1. Torpaq, tikili və avadanlıqların təsnifatı......................................15

   3.2. Torpaq, tikili və avadanlıqların qiymətləndirilməsi.................... 19

   3.3. Torpaq, tikili və avadanlıqların daxil olmasının uçotu............... 23

   3.4. Torpaq, tikili və avadanlıqların çıxmasının uçotu ..................... 27

   3.5. Torpaq, tikili və avadanlıqların köhnəlməsinin uçotu ............. 28

   3.6. Torpaq, tikili və avadanlıqların təmirinin uçotu ....................... 30

4. Torpaq, tikili və avadanlıqların uçotunun təkmilləşdirilməsi ........... 32

Nəticə ............................................................................................ 35

Ədəbiyyat ....................................................................................... 36

# G i r i ş

Bazar münasibətləri şəraitində istehsal prosesinin əsasını əmək vasitələri, əmək əşyaları və istehlak məhsullarının istehsalında insanın məqsədəuyğun fəaliyyəti kimi əməyin özü təşkil edir. Əmək vasitələrinə maşınlar, avadanlıqlar, alətlər və əmək əşyaları təsir göstərmək və istehsal prosesində onların görünüşünü dəyişmək üçün ayrılmış digər alətlər, habelə istehsalın normal işləməsi üçün lazım olan bütün digər maddi şəraitlər (binalar, körpülər, yollar və s.) daxildir. Azərbaycan respublikası Maliyyə Nazirliyinin 20 oktyabr 1995-ci il tarixli İ-94 saylı əmri ilə təsdiq edilmiş və 1 yanvar 1996-cı ildə qüvvədə olan "Təşkilatların mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat"a müvafiq olaraq 1 yanvar 1996-cı ildən sonra alınan əsas vəsait vahidinin və y dəstinin dəyərinin minimum həddi 100 manat həcmində müəyyən edilmişdir.

Yeni Milli Mühasibat Uçotu qaydalarında artıq 100 manat məhdudiyyəti yoxdur, sadəcə 1 il məhdudiyyəti var. Belə çıxır ki, yeni standartlara əsasən, əgər hər hansı bir aktivin, əmlakın dəyəri 100 manatdan aşağıdırsa, amma onun faydalı istifadə müddəti 1 ildən yuxarıdırsa, artıq o "torpaq, tikili və avadanlıq" kimi uçota alına bilər.

"Torpaq, tikili və avadanlıqlar üzrə" 7 saylı Milli Mühasibat Uçotu Standartı 64 maddədən ibarətdir və burada tam şəkildə verilib.

Bu standart digər Milli Mühasibat Uçotu Standartının başqa uçot qaydasının tələb etdiyi və ya başqa uçot qaydasının istifadəsinə yol verdiyi hallar istisna olmaqla torpaq, tikili və avadanlıqların mühasibat uçotuna tətbiq edilməlidir.

Bu standart aşağıdakılara tətbiq edilmir:

a) "satış üçün nəzərdə tutulmuş uzunmüddətli aktivlərin uçot və dayandırılmış əməliyyatlar üzrə" Kommersiya təşkilatları üçün 23 saylı Milli Mühasibat Uçotu Standartına uyğun olaraq satış üçün nəzərdə tutulmuş kimi təsnifləşdirilən torpaq, tikili və avadanlıqlar;
b) Kənd təsərrüaftı fəaliyyətinə aid edilən bioloji aktivlər;
c) Investisiya mülkiyyətinə;
d) Tədqiqat və qiymətləndirmə aktivlərinin tanınması və ölçülməsinə;
e) Neft, təbii qaz və oxşar bərpa edilməyən ehtiyatlar kimi yeraltı sərvətlər və faydalı qazıntılardan istifadə hüquqlarına.

Buna baxmayaraq, hazırkı standart bu maddənin b) və a) bəndlərində təsvir edilmiş aktivlərin inkişafı və saxlanılması üçün istifadə olunan torpaq, tikili və avadanlıqlarına tətbiq edilir.